https://doi.org/10.59849/3006-1342.2025.1.84
UOT 94(479.24).

*Ruziyə Akif qızı Abdullayeva*
*Böyük laborant*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., Heydər Əliyev pr. 419*
*E-mail: abdullayevaruziye596@gmail.com*

# GƏNCƏ TARİXİ ORTA ƏSRLƏR YAZILI MƏNBƏLƏRİNDƏ

*Məqalədə XIII əsrin əvvəllərinə aid, fars dilində yazılmış "Əcaib-əd-Dünya" adlı əsərdə, Yaqut Əl-Həməvinin "Mucəm əl-Buldan" əsərində, həmçinin orta əsr ərəb səyyahlarının öz kitablarında Gəncə şəhəri barədə göstərilən qeydlər araşdırılıb.*

*Bununla yanaşı, XVII əsrdə Gəncədə olmuş türk səyyahı Övliya Çələbinin "Səyahət kitabı"nda bu qədim şəhər haqqında verdiyi məlumatlar, Gəncənin əsrlər boyu savaşların meydanı olması kimi məsələlər işıqlandırılmışdır.*

*Açar sözlər:* Gəncə, yazılı mənbələr, Gəncə orta əsrlərdə, XVII əsr müəlliflərinin əsərlərində Gəncə

*Giriş*

Azərbaycanın qədim şəhərlərindən biri olan qədim Gəncənin xarabalıqları müasir Gəncə şəhərinin 6–7 km şimal-şərqindədir.

Bütün inkişaf etmiş və orta əsr Azərbaycan ərazisində mövcud olan paytaxt şəhərlər kimi Gəncə şəhəri də qala divarları ilə əhatə olunmuşdur. Hazırda qalanın xarabalıqları Gəncə şəhərinin yaxınlığında yerləşir. Şəhər yerində müxtəlif dövrlərdə arxeoloji qazıntı işləri aparılsa da, bu işlər tamamilə yekunlaşdırılmayıb. Qazıntılar zamanı qala divarlarının bir hissəsi, şəhərin müxtəlif ictimai binalarının qalıqları və çoxlu maddi mədəniyyət nümunələri aşkarlanıb. Arran memarlıq məktəbinə uyğun olaraq Gəncə qalasının divarları kərpicdən inşa edilib. Ümumiyyətlə, qədim Gəncə şəhər yerinin erkən orta əsrlər dövründə inkişafa başladığı, Nizami Gəncəvi dövründə, yəni XII əsrdə ən yüksək inkişaf mərhələsinə çatdığı, monqol yürüşləri zamanı dağıdılaraq tənəzzülə uğradığı bildirilir. Lakin sonradan şəhər yenidən bərpa edilərək böyük ticarət mərkəzinə çevrilmişdi. Hələ XI əsrdə həyatının əsas hissəsini Gəncədə hökmdar sarayında yaşamış Qətran Təbrizi Gəncəni "cənnət bağçası"na bənzətmişdir.

XIII əsrin əvvəllərində fars dilində yazılmış "Əcaib-əd-Dünya" adlı əsərdə Gəncənin sıx əhalisi olan inkişaf etmiş paytaxt şəhəri olduğu qeyd edilir: *"Bu Arranda böyük şəhərdir və onun paytaxtıdır. Möhkəm qalası və istehkamları var. Sıx əhalisi olan və inkişaf edən şəhərdir. Onun əhalisi bacarıqlı və ağıllıdır".* [1, s. 220]

XII əsrin sonu - XIII yüzilliyin əvvəllərində yaşamış yunan əsilli ərəb coğrafiyaşünası və səyyah Yaqut Əl-Həməvi də "Mucəm əl-Buldan" əsərində Arran vilayətinin şəhərləri içərisində Gəncənin adını çəkir və bildirir ki, *"Arran geniş bir vilayətin ərəbcə olmayan adıdır, çoxlu şəhərləri var. Onların içində Gənzə şəhəri (xalq onu "Gəncə" adlandırır), Bərdə, Şəmkir, Beyləqan şəhərləri vardır*". [3, s.183]

Gəncənin Arran vilayətinin inkişaf etmiş, bol bəhrəli, mülayim iqlimə malik bir məkan olduğunu XIV əsr tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini belə qeyd edir:

*Seçmə şəhərlər var cəmi bir neçə,*
*Bütöv xəzinədir Arranda Gəncə*

*Varı bol, suyu saf, barlı, bəhrəli,*
*İqlimi mülayim, torpağı gencə* [6, s.239]

Həmdullah Qəzvininin Gəncə haqqındakı bu fikirlərinə XVI əsrdə yaşamış Mustafa Əfəndinin "Tarix Selaniki", yazıçı İbn əl Əsirin "Əl kamil fi-t-Tarix" əsərlərində və tanınmış səyyah Hacı Zeynəlabdin Şirvaninin xatirələrində də rast gəlirik. Mustafa Əfəndi əsərində qeyd edir ki,*"Allah haqqı əcəm vilayətində Gəncə kimi nazənin və gözəl bir yer görməmişəm".* İbn əl Əsir isə *"Gəncə Arran vilayyətlərinin anası (mərkəzi) idi",* - deyə yazırdı. Hacı Zeynəlabdin Şirvani Gəncənin təsvirini verərkən Həmdullah Qəzvininin fikirlərinə daha çox yaxınlaşaraq *"Bir neçə şəhər var ki, onlar bütün şəhərlərdən gözəlliyi, quruluşu,abu-havası ilə üstündür. Birincisi Gəncədir. Gəncə böyük və gözəl bir şəhərdir. Arranın ən gözəl şəhərlərindən hesab olunur. Beşinci iqlimə daxildir, suyu şirindir. İqlimi xoş və yeri nisbətən hündürdür",* - söyləmişdir. [1, s. 218]

Orta əsr səyyah və coğrafiyaşünas alimlərin əsərlərində Gəncənin yerləşməsi haqqında çoxsaylı məlumatlara rast gəlinir. Həmin tarixi məlumatlarda qeyd edilir ki, qədim Gəncə ilə indiki Gəncənin arasında bir neçə dəqiqə fərq var. X əsr ərəb coğrafiyaçısı və səyyahı Əl-İstəxri "Kitab Məsalik əl-Məmalik" (Yollar və məmləkətlər) əsərində qeyd edir ki,*"Bərdədən Gənzəyə (Gəncə Gənzə kimi verilmişdir) – bura şəhərdir – 9 fərsəx, Gənzədən Şəmkirə 10 fərsəxdir".* [5, s.62]

Ərəb tarixçisi və coğrafiyaşünası Əbülfida (XII–XIV əsrlər) Gəncənin 78° şərq uzunluğunda, 41°20' şimal enliyində göstərmişdir. Sonralar coğrafiyaşünas Sadiq İsfahani (XVII əsr) qədim mənbələr əsasında Gəncəni 88° şərq uzunluğu və 41°15' şimal enliyində göstərmişdir.

Orta əsr coğrafiyaşünasları şəhərin uzunluğunu "Xoşbəxtlik adası"ndan, enini isə ekvatorial xətdən hesablayıblar. Bütün müəlliflərin hesablamalarında enliklər bir-birinə yaxın hesablansa da, astronomik cihazların olmaması səbəbi ilə ölçmələrin dəqiq aparılmasında maneələr olduğuna görə demək olar ki, bütün müəlliflərdə uzunluqlarda fərq müşahidə olunur.

Gəncənin yerləşdiyi ərazi və ümumiyyətlə coğrafi mövqeyinin əlverişli olması tarixən bu qədim şəhərə əcnəbilərin müdaxilə və basqınlarına səbəb olmuşdur. Gəncənin yerləşdiyi əraziyə görə iqliminin mülayimliyi onun torpaqlarının yaratdığı gözəlliklər səyyah və coğrafiyaşünasların, şair və müxtəlif rəssamların diqqətini cəlb etmiş və onlar öz əsərlərində bu gözəl diyarın təsvirini vermişlər. Belə ki, XVI əsrdə yaşamış holland rəssamı Kornelli de Vcuyin Gəncə şəhərini vəsf edərkən belə söyləyir: *"Şəhərin ortasından qəşəng çay axır, burada çoxlu bağ vardır. Yaxşı şərab hazırlanır, meyvəcat boldur...Bura Azərbaycanın ən böyük şəhərlərindəndir"* [3, s.220]. Həmin dövr səyyahlarından Gəncədə olmuş Avril Filip qeyd edir ki, *"Biz (Gəncəyə) baharın ortasında gəldik, saysız - hesabsız çiçəkli və yarpaqlı ağaclarla örtülən evləri yaşıllıq dahada gözəlləşdirirdi,mən belə bir valehedici mənzərə görməmişəm".*

XVII əsrdə yaşamış Cəmaləddin Əbdürrəzzaq isə yazırdı: *"Həqiqətən bütün dünyada Gəncə şəhəri kimi torpaq görməmişəm. Behişt rəngi və müşk qoxusu vardır. Gulabı su, zəfəranı torpaqdır. Həqiqətən elə oynaq havası vardır ki, orada hər zaman torpaq rəqs edir".* [1, s.221]

XVII əsrdə Gəncədə olmuş türk səyyahı Övliya Çələbi "Səyahət kitabı"nda şəhərin əhalisinin sayı, sənətkarlıq xüsusiyyətləri, tikililəri və s. haqqında məlumat vermişdir.

Erkən orta əsrlər dövründə Azərbaycanda bir sıra sənətkarlıq sahələri öz fəaliyyətini davam etdirmişdir. Müəyyən dərəcədə zəifləmə baş versə də sənətkarlıq sahələri daxilində ixtisaslaşma gedirdi ki, bu da yeni-yeni sənət sahələrinin möhkəmlənməsinə gətirib çıxarırdı. Gəncəbasar ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan materiallar

əsasında söyləmək mümkündür ki, erkən orta əsrlərdə metalişləmə, dulusçuluq, şüşə istehsalı, toxuculuq, daşişləmə, ağacişləmə, sümükişləmə, boyaqçılıq, ipəkçilik və digər sənət sahələri mövcud olmuşdur.

XIII əsrin müəllifi Zəkəriyyə Qəzvini öz əsərlərindən birində qeyd edirdi ki, *"Gəncə ipəyi gözəlliyinə görə başqa ölkələrin ipəyindən üstün idi*". [3, s.16-17]

XII-XIII əsrlərdə Gəncədə ipək istehsalının çox olduğunu bildirən Gürcü mənbələrinin birində bildirilir ki, çar Davud Soslanın (1187-1208-09) Gəncəyə gəldiyi vaxt darvazadan saraya qədər küçəyə ipək döşənirmiş.

XIII əsrdə yaşamış Yaqut Həməvinin məlumatına görə Gəncədən Gürcüstana, İraqa, Orta Asiya və başqa yerlərə ipək parça aparılırdı.

Arxeoloji materiallar əsasında Gəncədə toxuculuğun müxtəlif şəkildə davam etdiyini söyləmək mümkündür. Tədqiqatlar Gəncə ərazisində istehsal olunan toxuculuq məhsullarının ölkənin digər ərazilərində də bazara çıxarıldığını göstərir. Eyni zamanda Qafqaz Albaniyasının digər ərazilərində istehsal olunan toxuculuq məhsullarının Gəncə bazarlarında satışını da izləmək mümkündür.

Gəncədə sənətkarlıq sahələri içərisində ağacişləmə, sümükişləmə və daşişləmə kimi sənət sahələrinin də mövcudluğunu söyləmək olar. Erkən orta əsr təbəqələrindən əldə olunan materiallar içərisində ağac, sümük və daş alətlərinin olması bunu söyləməyə əsas verir.

Tarixi mənbələrdə Gəncənin dəfələrlə müharibə meydanına çevrilməsi və dağıdılaraq, var olan xəzinəsinin talanması ilə bağlı xeyli məlumatlar vardır. Bununla yanaşı, qədim şəhərin vaxtaşırı zəifləməsinə təbii fəlakətlər də səbəb olmuşdur. Bunlardan ən dəhşətlisi 1139-cu ildə baş verən zəlzələ idi. Həmin dövrdə dağıdıcı fəlakətin Gəncəyə və onun sakinlərinə vurduğu zərbə çox dərin olmuş və bu hadisə həm tarixi materiallarda, həm də görkəmli şairlərin əsərlərində öz əksini tapmışdır. Ərəb əsilli İslam tarixçisi İbn əl-Əsir zəlzələ ilə bağlı yazırdı ki, *"hicri 534(1139)-cu ildə Gəncədə Azərbaycan və Arranın başqa vilayətlərində zəlzələ oldu. Lakin ən güclü zəlzələ Gəncədə baş verdi. Orada çoxlu evlər dağıldı, saysız-hesabsız adam qırıldı. Deyirlər ki, ölənlərin sayı 230 min nəfər idi*". [3, s.13] Əl Əsirin verdiyi bu məlumatda zəlzələ zamanı ölənlərin sayı qeyd edilmişdir. Bu rəqəmi nəzərə alsaq, əminliklə deyə bilərik ki, hələ XII əsrdə Gəncədə əlahi sıx məskunlaşmışdır. Bu fakt da Gəncənin həmin dövrdə inkişaf etmiş bir şəhər olduğunu sübut edir. Çünki məlumdur ki, əhali daha çox ictimai-siyasi, elmi-mədəni mühiti qaynar olan şəhərlərdə daha çox məskunlaşırdı. Bu dəhşətli zəlzələ haqqında XII əsrdə yaşamış dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi də öz "Xəmsə"sinə daxil olan sonuncu poeması "İsgəndərnamə"də ürək yanğısı ilə bəhs etmişdir:

*Qopdu bir zəlzələ, göyü oynatdı,*
*Şəhərlər dağılıb yerlərə batdı*
*Nə qədər xəzinə batdı o gecə,*
*O şənbə gecəsi yox oldu Gəncə.*[4, s. 447]

Orta əsr mənbələrində bu günə qədər Azərbaycanın qədim tarixi şəhəri olan Gəncə haqqında çoxsaylı maraqlı və dəyərli məlumatlarla rastlaşmışıq. Həmin mənbələrə həm tarixi, həm də ədəbi, bədii, poetik nümunələr daxildir. Bütün bunlar Gəncə tarixinin öyrənilməsində, tədqiq edilməsində mühüm əhəmiyyət kəsb edir. Araşdırmamızda qeyd edilən faktlar və müxtəlif fikirlər bu qədim şəhər haqqında olan məlumatların yalnız kiçik bir hissəsidir. Orta əsr mənbələrində həmin məlumatların daha geniş şəkildə araşdırılması tarixçilərin qarşısında duran əsas məsələlərdən biridir.

ƏDƏBİYYAT

1. Allahverdiyev N. Gəncə min ildə (951-1951). I kitab: (951-1551). 335 səh. "Elm və təhsil". Bakı, 2018.

2. Azərbaycan tarixi üzrə qaynaqlar / Tərtibçi və red. S.Əliyarlı. Bakı: Çıraq, 2007. 400 s.
3. Gəncə (tarixi oçerk) / Redaksiya heyəti: M.Ə. İsmayılov, F.M.Əliyev, A.Ə.Məmmədov və b. Bakı: Elm, 1994. 152 s.
4. Gəncəvi N. İskəndərnamə / N.Gəncəvi. Tərcümə edən: A.Şaiq, M.Rzaquluzadə. Gəncə: GDU nəşriyyatı, 2012. 664 s.
5. Orta əsrlər Azərbaycan tarixinə aid ərəb mənbələrindən seçmələr / AMEA, akad. Z.M.Bünyadov ad. Şərqşünaslıq İn-tu; tərc., qeyd və şərh. yaz. N.Bayramlı; elmi red. X.A. Hacıyev, Q.B.Səfərov. Bakı: [s. n.], 2016. 168 s.
6. Yanar M. Gəncənin dastanı. Şeirlər (Ədəbi-bədii, tarixi salnamə): [2 kitab] / M.Yanar. Bakı: Azərnəşr, k.1. 2012. 240 s.

УДК 94 (479.24)

*Рузия Акиф Абдуллаева*
*Гянджинское отделение НАНА*

ИСТОРИЯ ГЯНДЖИ В СРЕДНЕВЕКОВЫХ ПИСЬМЕННЫХ ИСТОЧНИКАХ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, письменные источники, Гянджа в средние века, Гянджа в произведениях авторов XVII века

В статье рассматриваются упоминания о городе Гянджа в произведении «Аджаиб-ад-Дунья», написанном на персидском языке в начале XIII века, «Муджам аль-Булдан» Якута аль-Хамави, а также в книгах средневековых арабских путешественников.

Кроме того, особое внимание уделяется информации, предоставленной Эвлией Челеби, турецким путешественником, посетившим Гянджу в XVII веке, в его «Книге путешествий», об этом древнем городе, а также таким вопросам, как то, что Гянджа на протяжении столетий была полем битвы.

UDC 94 (479.24)

*Ruzia Akif Abdullayeva*
*Ganja Branch of ANAS*

THE HISTORY OF GANJA IN MEDIEVAL WRITTEN SOURCES
*SUMMARY*

*Key words:* Ganja, written sources, Ganja in the Middle Ages, Ganja in the works of $17^{th}$ century authors

The article deals with the notes about the city of Ganja in the work “Ajaib-ad-Dunya” written in Persian at the beginning of the $13^{th}$ century, in Yaqut Al-Hamawi’s “Mujam al-Buldan”, as well as in the books of medieval Arab travelers.

In addition, the information about this ancient city in the “Book of Travels” of the Turkish traveler Evliya Chelebi, who visited Ganja in the $17^{th}$ century, and issues such as the fact that Ganja was a battlefield for centuries are highlighted.

**Daxil oldu: 18.02.2025-ci il**